# Azərbaycan alimi Əsgər Zeynalovun "Hüqo-fransız ədəbiyyatının milyarderi" kitabı Fransada nəşr olunmuşdur







ADU-nun professoru Əsgər Zeynalov fransız ədəbiyyatı üzrə respublikamızda ən görkəmli mütəxəssislərdən biridir. 2003-cü ildə "Fransız ədəbiyyatında Şərq" (Volterin yaradıcılığı üzrə) doktorluq dissertasiyasını müdafiə edən tədqiqatçının bu sahə ilə bağlı 10-dan artıq kitabı və 100-dən artıq məqaləsi çap edilmişdir.

Azərbaycan ədəbiyyatşünaslığında Volter və Hüqo haqqında ilk monoqrafiyalar məhz Əsgər Zeynalovun qələminə məxsusdur. Onun fransız ədəbiyyatı ilə bağlı əsərləri təkcə respublikamızda deyil, onun hüdudlarından kənarlarda da - Türkiyədə, İranda, Rusiyada, Fransada nəşr olunmuşdur. Respublikamızı bir sıra beynəlxalq konfranslarda layiqincə təmsil edən ədəbiyyatşünas-alimin əsərlərinə bir sıra ölkələrin universitetlərinin kitabxanalarında rast gəlmək olar.

Bu günlərdə isə ədəbiyyatşünas-alimin "Hüqo-fransız ədəbiyyatının milyarderi" monoqrafiyası Fransanın məşhur "Francofon Akademik Mətbuatı" nəşriyyatı tərəfindən işıq üzü görmüşdür. Kitabın redaktoru ADU-nun tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru Vazeh Əsgərov, rəyçisi professor Sevda Vahabovadır. 160 səhifədən ibarət bu monoqrafiyada görkəmli qərbşünas alim, professor Cəlil Nağıyevlə yanaşı dünya şöhrətli fransız alimləri Jan Lui Bakke Qrammon (1996), Arno Lasterin (2013), habelə "Est Republicain" qəzetinin əməkdaşları Daniel Bordurun (2007), İv An-ın (2014), Frans-Konte regionunun Konseyi, vitse-prezidenti Pyer Monyin Feyzonun (2014) professor Əsgər Zeynalovun yaradıcılığı ilə bağlı müxtəlif vaxtlarda qələmə aldıqları yazılar öz əksini tapmışdır.

Kitabın əvvəlində professor Əsgər Zeynalov haqqında yığcam məlumat da verilmişdir.

"Hüqo-fransız ədəbiyyatının milyarderi" monoqrafiyasında "Hüqonun həyatı" bölməsində fransız ədibinin həyat və yaradıcılığından bəhs olunur. "Hüqo və Azərbaycan: tədqiqatlar və tərcümələr" bölməsindən bəlli olur ki, müxtəlif vaxtlarda Azərbaycan ədəbiyyatşünasları və tərcüməçiləri Hüqo yaradıcılığına müraciət etmiş, fransız ədibinin əsərləri dilimizə tərcümə olunaraq dönə-dönə nəşr olunmuşdur. Kitabda o da xüsusi vurğulanır ki, Azərbaycan Prezidentinin sərəncamı ilə Hüqonun "Səfillər" romanı, az sonra isə "Seçilmiş əsərləri" latın qrafikası ilə işıq üzü görmüşdür. Xatırlatmaq lazımdır ki, hər iki kitabın ön sözü Ə.Zeynalov tərəfindən yazılmışdır. Monoqrafiyada Hüqonun poeziyasına ayrıca bölmə ayrılmışdır. Bu bölmədə ədibin "Şərq motivləri" və 1843-cü il sentyabr ayının 4-də Sena çayında faciəli surətdə həlak olmuş Hüqonun qızı Leopoldinanın ölümünə həsr olunmuş şeirləri təhlil olunmuşdur.

"Hüqonun romanları" bölməsində fransız yazıçısının Azərbaycan oxucularına yaxşı tanış olan "Səfillər" və "Paris Notr-Dam kilsəsi" romanları geniş surətdə təhlil süzgəcindən keçirilmişdir. Bu əsərlər araşdırılarkən onların birində "Xeyirxahlıq problemi", ikincisində "İnsan hüququ" problemi əsas tədqiqat obyekti götürülmüşdür.

Kitabın ən maraqlı bölmələrindən biri "Hüqonun müasirləri" adlanır. Bu bölmədə yazıçının müasirləri, XIX əsr fransız ədəbiyyatının ən görkəmli nümayəndələri haqqında məqalələr təqdim olunmuşdur. Bunlar əsasən Hüqonun dostları - Balzak, Düma, Jorj Sand, Flober və eyni zamanda Mopassan haqqında yazılardır. "Parisə məktublar və Parisdən məktublar" bölməsinin əsasını Ə.Zeynalov və hüqoşünas fransız alimi Arno Lasterin məktublaşmaları təşkil edir. "Hüqonun fransız mütəxəssisi" bölməsində Parisdə fəaliyyət göstərən "Hüqonun dostları" cəmiyyətinin prezidenti Arno Lasterin həyatı, elmi və ictimai fəaliyyətindən bəhs olunur.

"Hüqonun vətənində" başlığında Ə.Zeynalovun Fransaya səfərləri, orada onun maraqlı, yaddaqalan görüşləri və unudulmaz anlardan bəhs olunur.

Azərbaycanlı alim Əsgər Zeynalov təkcə respublikamızda deyil, Fransada da özünü Hüqonun mütəxəssisi kimi təsdiq etmişdir. 2014-cü ildə müəllifin "Hüqo" monoqrafiyası Azərbaycan Respublikasının Dövlət mükafatına təqdim olunmuşdur.

25-dən artıq kitabın, 350-dən artıq elmi-publisistik məqalənin müəllifi olan professor Əsgər Zeynalovun "Hüqo - fransız ədəbiyyatının milyarderi" monoqrafiyası müəllifin xaricdə nəşr olunmuş üçüncü kitabıdır. Bundan əvvəl ədəbiyyatşünas alimin Sankt-Peterburqda (2011) və Moskvada (2013) "İrəvan ziyalıları" kitabı işıq üzü görmüşdür. Görkəmli alimi Fransada nəşr olunmuş monoqrafiyası münasibətilə təbrik edir və ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Arzu ƏLİYEVA,**
**"Respublika".**